## Sultan MƏRZİLİ

### *Qələbə*

Dişlə, dırnaq ilə qalxır zirvəyə,
Bu necə seldir ki, axır zirvəyə?!
Düşmənin gözünə ox kimi batır,
Zirvədən qayatək baxır zirvəyə!

Dərin tarixlərdən ordum doğulur,
Qaplanım, pələngim, qurdum doğulur!
Ucalır şəhidlik zirvələrindən
Yenidən torpağım, yurdum doğulur!

Döyüşdə vuruşan əsgərim mətin,
Tər ilən, qan ilən yoğrulur Vətən!
Şükürlər, Səməndər quşutək bu gün,
Yenidən doğulur qədim millətim!

Elə bil hərbə yox, toya gedirlər,
Qartaltək çəkilən qıya gedirlər,
Bu odlar yurdunun od oğulları,
Nur olub ulduza, Aya gedirlər!

İgidim, cəsurum, alpım, aslanım,
Qürurum, ümidim, şöhrətim, şanım.
Xocalı qisası qalmaz məşhərə,
Yazıldı Şuşada yeni dastanım!

### *Kəlbəcər yolu*

*Şanlı ordumuz*
*Kəlbəcər yolunu qapatdı!*

Bağlanıb asfaltlı Kəlbəcər yolu,
Ey qızıl axtaran, gəl becər yolu!
Dünən Şuşamızda "Yallı" gedənlər
Axtarır qaçmağa dərbədər yolu!

Ay ağves, ay çatlak, şondığa, şonvert,
Gəlmirmi Sorosdan bağlama, konvert?!
"Kələntər dayın" da girinc qalıbdı,
Ağdərəyə dönüb getdı Mardakert!

Ədəbiyyat QƏZETİ
9 yanvar / 2021

Zirvələr üstündə ular boz qurdum,
Qalmaz çaqqallara bu ulu yurdum.
Bütün Azərbaycan əhli oyaqdı,
Mən də əskər olub keşikdə durdum!

Sən nə bilmişdin ki Azərbaycanı?!
Yatmışdı, oyanıb Qafqaz aslanı!
Şığıyır üstünə əzrail kimi,
Qoymaz səndə qala o murdar canı!

Hələ çox söhbətim, sözüm olacaq,
Hər çətin döyüşə dözüm olacaq.
Dün yallı, bu günsə nallı gedirsən,
Qarabağ bizimdir, bizim olacaq!

## *İki bayatı*

Xəbər gəlir atlıdan,
Atları qanadlıdan.
İtləri qovuruq biz
Laçından, Qubadlıdan!..

* * *

Mən aşiq Xankəndinə,
Xanların xan kəndinə!
İrəli, vətən oğlu,
Kəndinə gəl, kəndinə!